Salam.

Hörmətli markerlər, sizə ödəniş edə bilməyimiz üçün **yeni** (bu il yoxlamaya başlayan) markerlər DİM-in marker bazasında şəxsi məlumatlarını və bank rekvizitlərini vaxtında və dəqiq daxil etməlidirlər. Əvvəlki illərdə yoxlamalarda olan markerlər isə DİM-in marker bazasında şəxsi məlumatlarını və bank rekvizitlərini vaxtında və dəqiq yeniləməlidir, əgər ehtiyac varsa (kartınızın istifadə müddəti bitibsə və ya başqa kartla ödəniş almaq istəyirsinizsə və ya kartınızın istifadə müddəti sentyabrdan (2024-cü il) tez bitəcəksə və s.).

DİM-in marker bazasında şəxsi məlumatlarınızın və bank rekvizitlərinizin vaxtında və dəqiq yenilənməsi (daxil etmək) üçün aşağıda əlavə edilən linkə daxil olub ardıcıllıqda əməliyyatları etmək lazımdır:

1. Linki (https://eservices.dim.gov.az/experts/page_login.aspx ) kopyalayıb kompüterinizdə açırsınız;

2. Açılan pəncərədə marker kodunuzu (marker kodları hərkəsə öncədən verilib və ya yeni markerlər üçün qrupa göndəriləcək siyahıda adınızın qarşısında qeyd olunub 6 rəqəmli kod) və şəxsiyyət vəsiqənizin FİN kodunu yazıb "Daxil ol" düyməsini sıxın (FİN kodu CAPS LOCK rejimində yazmaq lazımdır);

3. Açılan yeni səhifədə şəxsiyyət vəsiqənizin seriyasını və nömrəsini yazıb, şəklinizin altında olan "Şəxsi məlumatları yenilə" düyməsini sıxın;




4. Açılan şəxsi kabinetinizdə sonuncu şəxsiyyət vəsiqənizin məlumatları hazır olacaq. Digər məlumatları dəqiq yazıb sağ tərəfdə şəklinizin altında "məlumatları yadda saxla və təsdiq et" düyməsini sıxın.




5. "məlumatları yadda saxla və təsdiq et" düyməsini sıxdıqdan sonra sistemdən çıxın və təkrar sistemə daxil olub daxil etdiyiniz məlumatların yaddaşda qalıb-qalmamasını təkrar yoxlayın.

**Qeyd 1.** Hesab nömrəsi sizin adınıza olmalıdır. Kartı istənilən bankdan əldə edə bilərsiniz. Hesab nömrəsi yerinə kartın üzərindəki rəqəmləri DAXİL ETMƏYİN! Adınıza olan karta bankdan rekvizit alın və oradakı kodu daxil edin. Bank rekvizitlərinizi bankınızdan dəqiqləşdirib yazın (və ya mobil tətbiqdən əldə edin).

Kapital bankdan başqa digər banklar vasitəsi ilə ödəniş alanlar:




Bankın adını siyahıdan tam dəqiq tapır və hesab nömrəsi (İBAN) hissəsinə bank tərəfində təqdim olunan hesab nömrəsini daxil edirsiz.

Qeyd 2. Sosial sığorta kartı olmayanlar həmin sahəyə şərti olaraq doğum tarixlərini yazsınlar.

Qeyd 3: Ödənişini kartla alanlar  VÖEN hissəsində heç bir qeyd etmirlər (yəni VÖEN hissə boş qalmalıdır).

Ödənişi Kapital Bank vasitəsilə alanlar:

Bankın adı (kodu) hissəsindən kapital bankı və ya onun hər hansı filialını seçdikdə sağ tərəfdə hesab tipi bölməsi çıxacaq




Ödəniş üçün əmək haqqı hesabı (maaş kartı) daxil edənlər  “hesab tipi” bölməsindən “əmək haqqı hesabı” seçirlər və sağ tərəfdə “hesab nömrəsi (20 rəqəmli)” hissəsini doldurmalıdırlar ((əsasən orta məktəbdə hazırda işləyən müəllimlər bura aiddir) yalnız 388 ilə başlayan 20 rəqəmli hesab nömrəsi qeyd etməlidirlər).




Ödəniş üçün Cari hesabı olanlar (1 bank, debet kartlar) “hesab tipi” bölməsindən “cari hesab” seçirlər və sağ tərəfdə “hesab nömrəsi (20 rəqəmli)” hissəsini doldurmalıdırlar.

Cari hesab olanlar (1 bank, debet kartlar)

1. Bankın adı hissəsində kartın alındığı Kapital bank filialının adı seçilir;

2. Hesab tipi hissəsində cari hesab seçilir;

3. Hesab nömrəsi hissəsində rekvizitdəki 20 rəqəmli kod (388-lə başlayan kod) yazılır;




4. Hesablaşma hesabı hissəsində rekvizitdəki 28 simvollu kod yazılır;

**Qeyd:** Ödənişini kartla alanlar VÖEN hissəsində heç bir qeyd etmirlər (yəni VÖEN hissə boş qalmalıdır).